# "SOSİAL TƏDQİQATLAR MƏRKƏZİ" PUBLİK HÜQUQİ ŞƏXS-İN 31.12.2021-Cİ İL TARİXƏ MALİYYƏ HESABATLARI VƏ MÜSTƏQİL AUDİTORUN HESABATI

BAKI-2022

## MÜNDƏRİCAT


| | |
|---|---|
| **Maliyyə hesabatlarının hazırlanması və təsdiqlənməsi ilə bağlı rəhbərliyin məsuliyyətinə dair hesabat** | **3** |
| **Müstəqil auditorun hesabatı** | **4-5** |
| **Maliyyə vəziyyəti haqqında hesabat** | **6** |
| **Mənfəət və zərər haqqında hesabat** | **7** |
| **Kapitalda dəyişikliklər haqqında hesabat** | **8** |
| **Pul vəsaitlərinin hərəkəti haqqında hesabat** | **9** |
| **Maliyyə hesabatlarına şərhlər və qeydlər** | **10-28** |

## 31 DEKABR 2021-Cİ İL TARİXİNƏ BAŞA ÇATAN İL ÜZRƏ MALİYYƏ HESABATLARININ HAZIRLANMASI VƏTƏSDİQLƏNMƏSİİLƏ BAĞLI RƏHBƏRLİYİN MƏSULİYYƏTİNƏ DAİR HESABAT

Rəhbərlik "SOSİAL TƏDQİQATLAR MƏRKƏZİ" PUBLİK HÜQUQİ ŞƏXS-in 31 dekabr 2021-ci il tarixinə maliyyə vəziyyətini, eləcə də həmin tarixə başa çatan il üzrə maliyyə nəticələri, pul vəsaitlərinin hərəkəti və kapitalda dəyişiklikləri düzgün əks etdirən Maliyyə Hesabatlarının Beynəlxalq Standartlarına ("MHBS") müvafiq olaraq hazılanmasına görə məsuliyyət daşıyır.

Maliyyə hesabatlarının hazırlanmasında rəhbərlik aşağıdakılara cavabdehdir:

- Mühasibat uçotu qaydalarının müvafiq şəkildə seçilməsi və tətbiqinə;
- Məlumatların, o cümlədən mühasibat uçotu qaydalarının müvafiq, mötəbər, müqayisəli və anlaşıla bilən tərzdə təqdimatına;
- İstifadəçilərə xüsusi əməliyyatların, digər hadisə və şəraitlərin PHŞ-in maliyyə vəziyyəti və maliyyə nəticələrinə təsirini anlamaqda yardım göstərilməsi üçün MHBS-nın xüsusi tələblərinin yerinə yetirilməsi kifayət etmədikdə əlavə açıqlamalar verilməsinə;
- PHŞ-in fasiləsizlik prinsipinə əsasən fəaliyyətini davam etdirə bilməsi imkanlarının qiymətləndirilməsinə;

Həmçinin rəhbərlik aşağıdakılara görə məsuldur:

- PHŞ-in daxilində sağlam və effektiv daxili nəzarət sisteminin yaradılması, tətbiqi və saxlanılmasına;
- PHŞ-in əməliyyatlarının açıqlanması və izah edilməsi, habelə,onun maliyyə hesabatlarının istənilən vaxt dəqiqliklə açıqlanması üçün yetərli olan və PHŞ-in maliyyə hesabatlarının MHBS-na uyğun gəldiyini təmin ede biləcək müvafiq mühasibat uçotu qeydlərini aparılması;
- Azərbaycan Respublikasının qanunvericiliyi və mühasibat uçotu qaydalarına müvafiq olaraq məcburi mühasibat uçotu qeydlərinin aparılmasına;
- PHŞ-in aktivlərinin mühafizə olunması üçün mümkün tədbirlər görülməsinə;
- Saxtakarlıq və digər pozuntuların müəyyən edilməsi və qarşısının alınmasına.

PHŞ-nin 31 dekabr 2021-ci il tarixinə başa çatan il üzrə maliyyə hesabatları 30.09.2022-ci il tarixində rəhbərlik tərəfindən təsdiq olunmuşdur.

**Publik Hüquqi Şəxs tərəfindən:**

Vahid Oruc

**İdarə Heyətinin sədri**

A.B.Mikayılova

**Baş mühasib**

*30.09.2022-ci il*

***Bakı, Azərbaycan Respublikası***

CASPIAN CONSULTING & PARTNERS

Zərifə Əliyeva küçəsi 93,
BEGOC Biznes Mərkəzi,6-cı mərtəbə
AZ1000 Bakı, Azərbaycan.
tel: +99412 505-58-47
+99412 505-58-48
mob: +99450 225-79-15
e-mail: office@cc.baku.az
veb səhifə: www.caspian-consulting.com

# MÜSTƏQİL AUDİTORUN HESABATI

## "SOSİAL TƏDQİQATLAR MƏRKƏZİ" PUBLİK HÜQUQİ ŞƏXS-in rəhbərliyinə

Ünvan: AZ1010, Bakı şəhəri Səbail Rayonu, İzzət Nəbiyev, ev.40A.

**Rəy**

Biz "SOSİAL TƏDQİQATLAR MƏRKƏZİ" PUBLİK HÜQUQİ ŞƏXS -in (bundan sonra "PHŞ") 31 dekabr 2021-ci il tarixinə olan maliyyə vəziyyətinin hesabatdan, məcmu gəlirlər hesabatdan, kapitalda dəyişikliklər hesabatından və göstərilən tarixdə başa çatan il üçün pul vəsaitlərinin hərəkəti hesabatından, habelə uçot siyasətinin əhəmiyyətli prinsiplərinin qısa təsviri də daxil olmaqla, maliyyə hesabatlarına edilən qeydlərdən ibarət maliyyə hesabatlarının auditini aparmışıq.

Fikrimizcə, maliyyə hesabatları "SOSİAL TƏDQİQATLAR MƏRKƏZİ" PHŞ-in 31 dekabr 2021-ci il tarixinə olan maliyyə vəziyyətini və həmin tarixdə bitmiş il üzrə maliyyə nəticələri və pul vəsaitlərinin hərəkəti haqqında hesabatları bütün əhəmiyyətli aspektləri baxımından Beynəlxalq Maliyyə Hesabatları Standartlarına uyğun olaraq obyektiv şəkildə təqdim edir.

**Rəy üçün əsaslar**

Biz auditi Beynəlxalq audit standartlarına (BAS) uyğun aparmışıq. Bu standartlar üzrə bizim məsuliyyətlərimiz əlavə olaraq hesabatımızın "Maliyyə hesabatlarının auditi üçün auditorun məsuliyyəti" bölməsində təsvir edilir. Biz Azərbaycan Respublikasındakı maliyyə hesabatlarının auditinə aid olan etik normaların tələblərinə uyğun olaraq PHŞ-dən asılı deyilik və biz digər etik öhdəliklərimizi bu tələblərə uyğun yerinə yetirmişik. Biz hesab edirik ki, əldə etdiyimiz audit sübutları rəyimizi əsaslandırmaq üçün yetərli və münasibdir.

**Maliyyə hesabatları üçün rəhbərliyin məsuliyyəti**

Rəhbərlik maliyyə hesabatlarının Beynəlxalq Maliyyə Hesabatları Standartlarına uyğun olaraq hazırlanmasına və düzgün təqdim edilməsinə və rəhbərliyin fikrincə, dələduzluq və ya səhvlər nəticəsində əhəmiyyətli təhrif olmadığı maliyyə hesabatlarının hazırlanmasına imkan verən zəruri daxili nəzarət sisteminin təşkilinə görə məsuliyyət daşıyır

Maliyyə hesabatlarını hazırladıqda, rəhbərlik PHŞ-i ləğv etmək və ya işini dayandırmaq niyyətində olmadığı yaxud bunu etməkdən başqa münasib alternativ olmadığı halda, rəhbərlik PHŞ-in fasiləsiz fəaliyyət göstərmək qabiliyyətinin qiymətləndirilməsinə, müvafiq hallarda fasiləsiz fəaliyyətə aid olan məsələlər haqqında məlumatların açıqlanmasına və mühasibat uçotunun fasiləsiz fəaliyyət prinsipinin istifadə edilməsinə görə məsuliyyət daşıyır.

İqtisadi subyektin idarə edilməsinə cavabdeh olan səlahiyyətli şəxslər PHŞ-in maliyyə hesabatlarının verilmə prosesinə nəzarətə görə məsuliyyət daşıyır.

**Auditorların məsuliyyəti**

Bizim məqsədimiz maliyyə hesabatlarında bir tam kimi, dələduzluq və ya səhvlər nəticəsində, əhəmiyyətli təhriflərin olub-olmadığına dair kafi əminlik əldə etmək və rəyimiz daxil olan auditor hesabatını dərc etməkdir. Kafi əminlik əminliyin yüksək səviyyəsidir, lakin o zəmanət vermir ki, əhəmiyyətli təhrif mövcud olduqda, BAS-lara uyğun olaraq aparılmış audit onu həmişə aşkarlayır. Təhriflər dələduzluq və ya səhvlər nəticəsində yarana bilər və ayrılıqda yaxud məcmu olaraq, istifadəçilərin belə maliyyə hesabatları əsasında qəbul etdikləri iqtisadi qərarlarına təsir etmə ehtimalı olduğu halda, əhəmiyyətli hesab edilir.

BAS-ların tələblərinə uyğun olaraq aparılan auditin bir hissəsi kimi biz audit aparılan zaman peşəkar mühakimə tətbiq edirik və peşəkar şəkkaklıq nümayiş etdiririk. Biz həmçinin:

- Maliyyə hesabatlarında dələduzluq və ya səhvlər nəticəsində əhəmiyyətli təhriflər risklərini müəyyən edib qiymətləndiririk, bu risklərə cavab verən audit prosedurlarını layihələndirib həyata keçiririk və rəyimizi əsaslandırmaq üçün yetərli və münasib audit sübutlarını əldə edirik. Dələduzluq nəticəsində əhəmiyyətli təhrifi aşkarlamamaq riski səhvlər nəticəsindəkindən daha yüksəkdir, çünki dələduzluq sözləşmə, saxtakarlıq, qərəzli hərəkətsizlik, həqiqətə uyğun olmayan məlumatlardan və ya daxili nəzarətin kobudcasına pozulmasından ibarət ola bilər.
- Şirkətin daxili nəzarətin səmərəliliyinə dair rəy bildirmək məqsədi üçün olmamaq şərtilə, bu şəraitlərdə uyğun olan audit prosedurlarını layihələndirmək üçün auditə aid daxili nəzarəti başa düşürük.
- İstifadə edilmiş uçot siyasətinin uyğunluğunu və rəhbərlik tərəfindən həyata keçirilən uçot qiymətləndirmələrinin və əlaqəli məlumatların açıqlanmasının məntiqliliyini qiymətləndiririk.
- Mühasibat uçotunun fasiləsizlik prinsipinin rəhbərlik tərəfindən istifadə edilməsinin uyğunluğuna və əldə edilən audit sübutlarının əsasında PHŞ-in fəaliyyətini fasiləsiz davam etmək imkanını ciddi şübhə altına qoya bilən hadisələrlə və ya şəraitlərlə bağlı əhəmiyyətli qeyri-müəyyənliyin mövcud olub-olmadığında dair nəticə çıxarırıq. Əhəmiyyətli qeyri-müəyyənliyin mövcud olduğu haqqında nəticə çıxardığımız halda, auditor hesabatımızda maliyyə hesabatlarındakı əlaqəli məlumatların açıqlanmasına diqqət yetirməliyik və ya belə məlumatların açıqlanması kifayət olmadığı halda, rəyimizə dəyişiklik etməliyik. Nəticələrimiz auditor hesabatımızın tarixinədək əldə edilən audit sübutlarına əsaslanmalıdır. Lakin sonrakı hadisələr və ya şəraitlər PHŞ-in fasiləsiz fəaliyyətinin dayandırılmasına səbəb ola bilər.

Biz iqtisadi subyektin idarə edilməsinə cavabdeh olan səlahiyyətli şəxslərə digər məsələlərlə yanaşı auditin planlaşdırılmış həcmi və müddətləri, habelə əhəmiyyətli audit sübutları, o cümlədən audit apardığımız zaman daxili nəzarətdə aşkar etdiyimiz əhəmiyyətli çatışmazlıqlar haqqında məlumat veririk.

"CASPİAN CONSULTİNG AND PARTNERS" MMC
Ünvan: AZ1000 Bakı ş. Səbail rayonu, Zərifə Əliyeva küçəsi 93

Direktor: Abdinova Elnura
Auditor: Abdinova Elnura

Tarix: 30.09.2022

**"SOSİAL TƏDQİQATLAR MƏRKƏZİ" PHŞ**

**MALİYYƏ VƏZİYYƏTİ HAQQINDA HESABAT**
**31 Dekabr 2021-ci il tarixinə**

| | Qeyd | 31 dekabr 2021-ci il | AZN-ilə<br>31 dekabr 2020-ci il |
|---|---|---|---|
| **AKTİVLƏR** | | | |
| **Uzunmüddətli aktivlər** | | | |
| Torpaq, tikili və avadanlıqlar | 8 | 3 022 412,66 | 1 194 295,31 |
| Qeyri-maddi aktivlər | 9 | 10 510,10 | 8 603,82 |
| **CƏMİ UZUNMÜDDƏTLİ AKTİVLƏR** | | **3 032 922,76** | **1 202 899,13** |
| **Qısamüddətli aktivlər** | | | |
| Ehtiyatlar | 7 | 249 858,39 | 166 538,35 |
| Pul vəsaitləri və onların ekvivalentləri | 6 | 1 398 525,05 | 671 711,29 |
| Verilmiş qısamüddətli avanslar | | 396 438,49 | |
| **CƏMİ QISAMÜDDƏTLİ AKTİVLƏR** | | **2 044 821,93** | **838 249,64** |
| **CƏMİ AKTİVLƏR** | | **5 077 744,69** | **2 041 148,77** |
| **KAPİTAL VƏ ÖHDƏLİKLƏR** | | | |
| **KAPİTAL** | | | |
| Nizamnamə kapitalı | | 1 280 338,00 | 1 280 338,00 |
| Kapital ehtiyatları | 10 | 1 218 477,88 | 1 218 477,88 |
| Bölüşdürülməmiş mənfəət | | 2 578 508,88 | (461 128,00) |
| **CƏMİ KAPİTAL** | | **5 077 324,76** | **2 037 687,88** |
| **ÖHDƏLİKLƏR** | | | |
| Qısa müddətli öhdəliklər | | | |
| Digər borc alınmış vəsaitlər | | | |
| Digər öhdəliklər | | 419,93 | 3 460,89 |
| **CƏMİ ÖHDƏLİKLƏR** | | **419,93** | **3 460,89** |
| **CƏMİ KAPİTAL VƏ ÖHDƏLİKLƏR** | | **5 077 744,69** | **2 041 148,77** |

**30.09.2022-ci il tarixində Cəmiyyət tərəfindən təsdiqlənmiş və onun adından imzalanmışdır**

Tahid Oruc
**İdarə Heyətinin sədri**

A.B. Mikayılova
**Baş mühasib**

## "SOSİAL TƏDQİQATLAR MƏRKƏZİ" PHŞ

### MƏNFƏƏT VƏ ZƏRƏRLƏR HAQQINDA HESABAT
**31 Dekabr 2021-ci il tarixinə**

**AZN-ilə**

| | Qeyd | 31 dekabr 2021-ci il | 31 dekabr 2020-ci il |
|---|---|---|---|
| Əsas əməliyyat gəliri | 4,5 | 4 788 098,06 | 1 225 903,30 |
| Müsbət məzənnə fərqi | | | |
| **Əməliyyat gəlirinin cəmi** | | **4 788 098,06** | **1 225 903,30** |
| Mənfi məzənnə fərqi | | | |
| Əsas vəsaitlərin və Qeyri-maddi aktivlərin silinməsindən xalis zərər | | | |
| İstifadə edilmiş material ehtiyatları | | (118 008,43) | (136 249,56) |
| İcarə haqqı | | (157 573,93) | (30 456,41) |
| Haqq və komissya xərcləri | | (84 000,00) | (77 354,00) |
| Əmək haqqı | | (6 629,47) | (5 391,19) |
| DSMF ayırmaları | | (964 445,74) | (911 204,83) |
| İnzibati və digər əməliyyat xərcləri | 11 | (236 289,2) | (205 021,09) |
| | | (181 514,40) | (390 439,27) |
| **İl üzrə xalis mənfəət (zərər)** | | **(1 748 461,18)** | **(1 756 116,35)** |
| **İl üzrə digər məcmu gəlirlər (xərclər)** | | | **-** |
| **İl üzrə cəmi məcmu mənfəət (zərər)** | | **3 039 636,88** | **(530 213,05)** |

**30.09.2022-ci il tarixində Cəmiyyət tərəfindən təsdiqlənmiş və onun adından imzalanmışdır.**

Zahid Orucov

**İdarə Heyətinin sədri**

A.B. Mikayılova

**Baş mühasib**

**"SOSİAL TƏDQİQATLAR MƏRKƏZİ" PHŞ**

**KAPİTALDA DƏYİŞİKLİKLƏR HAQQINDA HESABAT**
**31 Dekabr 2021-ci il tarixinə**

| | Qeyd | Nizamnamə Kapitalı | Kapital ehtiyyatları | Bölüşdürülməmiş mənfəət | Cəmi Kapital |
|---|---|---|---|---|---|
| **31 dekabr 2020-ci il tarixə qalıq** | | **1 280 338,00** | **1 218 477,88** | **(461 128,00)** | **2 037 687,88** |
| **2021-ci il üzrə xalis mənfəət** | | | | **3 039 636,88** | **3 039 636,88** |
| **Mülkiyyətçilərin kapital qoyuluşları** | | | | | |
| **Ehtiyat kapitalı** | | | | | |
| **Elan edilmiş dividendlər** | | | | | |
| **Maddələr arasında köçürmələr** | | | | | |
| **31 dekabr 2021-ci il tarixə qalıq** | | **1 280 338,00** | **1 218 477,88** | **2 578 508,88** | **5 077 324,76** |

**30.09.2022-ci il tarixində Cəmiyyət tərəfindən təsdiqlənmiş və onun adından imzalanmışdır.**

Zahid Oruc
**İdarə Heyətinin sədri**

A.B. Mikayılova
**Baş mühasib**

**"SOSİAL TƏDQİQATLAR MƏRKƏZİ" PHŞ**

**PUL VƏSAİTLƏRİNİN HƏRƏKƏTİ HAQQINDA HESABAT**
**31 Dekabr 2020-ci il tarixinə**

**AZN-ilə**

| **Əsas fəaliyyət nəticəsinə görə pul vəsaitlərinin hərəkəti** | | **31 dekabr 2021-ci il** | **31 dekabr 2020-ci il** |
|---|---|---|---|
| Daxilolmalar (əsas fəaliyyət üzrə) | **4** | 4 689 023,10 | 1 225 903,30 |
| Əsas fəaliyyətin digər növlərindən daxilolmalar | | 99 074,96 | 2 040,00 |
| ***Cəmi daxilolmalar*** | | **4 788 098,06** | **1 227 943,30** |
| Əməliyyat xərci | | | |
| Əmək haqqı üzrə ödənişlər | | (770 682,64) | (750 056,57) |
| Vergi və DSMF ödənişləri | | (430 543,95) | (364 748,53) |
| İcarə haqqı ödənişi | | (84 000,00) | (77 354,00) |
| Haqq və komisya xərcləri | | (6 691,86) | (5 311,74) |
| İnzibati xərclər üzrə ödənişlər | | (580 838,08) | (390 518,72) |
| Ehtiyyatların, materiallarən alınmasına görə ödəniş | | (240 495,71) | (105 980,46) |
| ***Cəmi hesablaşmalar*** | | 2 113 252,24 | 1 693 970,02 |
| **Əsas fəaliyyət nəticəsində pul vəsaitlərin daxilolması/xərclənməsi** | | 2 674 845,82 | (466 026,72) |
| **İnvestisiya fəaliyyəti nəticəsində pul vəsaitlərinin hərəkəti** | | | **(466 026,72)** |
| Əmlakın, sahənin (bina və tikililər) və avadanlığın əldə edilməsinə görə ödəniş | | (1 948 032,06) | (104 419,15) |
| **İnvestisiya fəaliyyəti nəticəsində pul vəsaitlərinin daxiloması/xərclənməsi** | | **(1 948 032,06)** | **(104 419,15)** |
| **Maliyyə fəaliyyəti nəticəsində pul vəsaitlərinin hərəkəti** | | | |
| Digər daxilolmalar | | | |
| Borc öhdəliklərindən daxilolmalar | | | |
| Borc öhdəliklərinin ödənilməsi | | | |
| Nizamnamə kapitalında artım | | | 1 180 338,00 |
| Məzənnə fərqi | | | |
| **Maliyyə fəaliyyəti nəticəsində pul vəsaitlərinin daxilolması/xərclənməsi** | | | **1 180 338,00** |
| **Pul vəsaitlərinin həcminin xalis artımı/azalması** | | **726 813,76** | **609 892,13** |
| **İlin əvvəlinə pul vəsaitləri və bank overdraftları** | | **671 711,29** | **61 819,16** |
| **İlin sonuna pul vəsaitləri və bank overdraftları** | **6** | **1 398 525,05** | **671 711,29** |

**30.09.2022-ci il tarixində Cəmiyyət tərəfindən təsdiqlənmiş və onun adından imzalanmışdır.**

Vahid Oruc

**İdarə Heyətinin sədri**

A. B. Mikayılova

**Baş mühasib**

## "SOSİAL TƏDQİQATLAR MƏRKƏZİ" PHŞ

*31 dekabr 2021-ci il tarixinə Uçot Siyasəti və Digər İzahedici Qeydlərin Qısa Xülasəsi*

### 1. PUBLİK HÜQUQİ ŞƏXS HAQQINDA

Sosial Tədqiqatlar Mərkəzi Publik Hüquqi Şəxs (Qeyd №1 üçün "Mərkəz") Azərbaycan Respublikası Prezidentinin 8 fevral 2019-cu il tarixli 525 nömrəli fərmanına əsasən təsis olunub. Daha sonra ölkə başçısının 12 aprel 2019-cu il tarixli sərəncamı ilə Mərkəzin Nizamnaməsi qəbul edilib.

Qeyd olunan fərman və sərəncamda Mərkəzin əsas vəzifəsi ölkə miqyasında ictimai münasibətlərin inkişaf dinamikasını sistemli təhlil etmək, bu sahədə mövcud tendensiyaları müəyyənləşdirmək və dəyişiklikləri proqnozlaşdırmaq, həmin dəyişikliklərin cəmiyyətə mümkün təsirlərini araşdırmaq, müasir informasiya texnologiyaları və elmi yanaşmalar tətbiq edilməklə ictimai fikrin öyrənilməsini və sosial tədqiqatlar aparılmasını təmin etmək, həyata keçirdiyi elmi-analitik təhlillərin nəticələrini dövlət orqanlarına operativ və təcili təqdim etməkdən ibarətdir.

Publik hüquqi şəxsin nizamnaməsi 2019-cu ilin 15 aprel tarixində 1702596741 (VÖEN) qeydiyyatı nömrəsi ilə Azərbaycan Respublikası Vergilər Nazirliyinin Bakı şəhər Vergilər Departamentinin Kommersiya Hüquqi Şəxslərin Dövlət Qeydiyyatı İdarəsi tərəfindən dövlət qeydiyyatına alınmışdır.

Azərbaycan Respublikası Vergilər Nazirliyi Kommersiya Hüquqi şəxslərinin 04.05.2020-ci il tarixli 2001020022784100 nömrəli dövlət reyestrindən çıxarışa əsasən, Cəmiyyət nizamnamə kapitalının miqdarı 1 280 338,00 (bir milyon iki yüz səksən min üç yüz otuz səkkiz) manat məbləğindədir.

Publik hüquqi şəxsin iştirakçılarının nizamnamə kapitalındakı payları aşağıdakı kimi müəyyən olunmuşdur:

Azərbaycan Respublikası 100%, (1 280 338,00) manat, məbləğində

Publik hüquqi şəxsin qanuni təmsilçisi Zahid Oruc Məhərrəm oğlu olmuşdur.

Publik hüquqi şəxsin hüquqi ünvanı : AZ1010, Bakı şəhəri Səbail rayonu, İzzət Nəbiyev, ev.40A

Sosial Tadqiqatlar Mərkəzi (bundan sonra-Mərkəz) ictimai münasibətlərin inkişafı dinamikasını sistemli təhlil eden, bu sahədə mövcud tendensiyaları müəyyənləşdirən və dəyişiklikləri proqnozlaşdıran, həmin dəyişikliklərin cəmiyyətə mümkün təsirlərini araşdıran, müasir informasiya texnologiyaları və elmi yanaşmalar tətbiq edilməklə ictimai fikrin öyrənilməsini va sosial tədqiqatlar aprılmasını təmin edən, həyata keçirdiyi elmi-analitik təhlilin nəticələrini dövlət orqanlarına təqdim eden publik huqüqi şəxsdir.

Mərkəz öz fəaliyyətində müstəqildir və Azərbaycan Respublikasının Konstitusiyasını, Azərbaycan Respublikasının tərafdar çıxdığı beynəlxalq müqavilələri, "Publik hüquqi şəxslər haqqında" Azərbaycan Respublikasının Qanununu, Azərbaycan Respublikasının digər qanunlarını bu Nizamnaməni, Azərbaycan Respublikası Prezidentinin digər fərmanlarını, həmçinin sərəncamlarını, Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərar və sərəncamlarını, digər normativ hüquqi aktları rəhbər tutur.

Mərkəz öz vəzifələrini yerine yetirərəkən və hüquqlarını həyata keçirərkən dövlət və yerli özünüidarəetmə orqanları, beynəlxalq ve qeyri-hökümət təşkilatları ilə, xarici qurumlar, hüquqi və fiziki şəxslərlə qarşılıqlı əlaqədə fəaliyyət göstərir.

Mərkəz ümumdövlət və ictimai əhəmiyyət daşıyan fəaliyyətla məşğul olur. Mərkəz sahibkarlıq fəaliyyəti ile o hallarda məşğul ola bilər ki, həmin fəaliyyət bu Nizamnamədə qarşıya qoyulmuş məqsədlərə nail olmağa xidmət etsin. Mərkəzin fəaliyyəti nəticəsində əldə olunan vəsait (gəlir) onun fəaliyyətinin temin edilməsinə yönəldilir.

Mərkəzin müstəqil balansı, sərəncamında olan əmlakı, xəzinə va bank hesabları, üzərində öz adı həkk olunmuş möhüru, müvafiq ştampları ve blankları vardır.

Qanuna uyğun olaraq, Mərkəzin əqdlər bağlamaq, öz adından əmlak və qeyri-əmlak hüquqları əldə etmək və həyata keçirmək hüququ, hemçinin vəzifələri vardır, o, məhkəmədə iddiaçı və ya cavabdeh qismində çıxış edir.

Mərkəz Bakı şəhərində yerləşir.

Mərkəz fəaliyyətinin məqsədi və istiqamətləri

Mərkəzin fəaliyyətinin məqsədi sosial tədqiqatların aparılmasını təmin etməkdir.

Mərkəzin fəaliyyət istiqamətləri aşağıdakılardır:

- Azərbaycan Respublikasında sosial tədqiqat, təhlil və proqnozlaşdırma işi ilə, habelə ictimai rəyin öyrənilməsi ilə bağlı siyasətin formalalaşdırılmasında və həyata keçirilməsində iştirak etmək;
- Dövlət və cəmiyyət arasında qarşılıqlı münasibətlərin inkişaf dinamikası və tendensiyalarını təhlil etmək, proaktiv yanaşma əsasında müasir informasiya texnologiyaları və innovativ məhsullar vasitəsilə rəy sorğuları keçirmək, ictimai fikri öyrənmək, təhlil etmək ve təkliflər vermək, elmi araşdırmalar aparmaq və bu sahədə dövlət orqanları (qurumları) ilə əməkdaşlıq etmək;
- Sosial yönümlü innovativ həll üsulları, müasir informasiya-kommunikasiya texnologiyaları vasitəsilə, habelə internet informasiya resurslarında, sosial şəbəkələrdə aparılan çoxşaxəli fəaliyyətlə cəmiyyet-dövlət təmaslarlarını gücləndirmək və inkişaf etdirmək;
- İdaraetmə prosesinin təkmilləşdirilməsi, aparılan islahatların səmərəliliyinin artırılması məqsədilə, habelə verilən qərarların, görülən tədbirlərin mümkün təsirərinə dair sosial tədqiqatlar aparmaq;
- İctimai əhəmiyyet kəsb edən müxtəlif mövzularda ictimai dinləmələr, debatlar keçirmək bu sahədə vətəndaş cəmiyyəti institutları ilə əməkdaşlıq etmək, geniş müzakirə platformaları qurmaq ve onları idarə etmək.
- Dövlət üçün əhəmiyyətli sayıla biləcək açıq və qapalı arayışlar, araşdırma sənədləri, məqalələr də hazırlamaq.

**2021-ci il ərzində Mərkəz tərəfindən edilən tədqiqatların siyahısı:**

"COVID-19 xəstəliyi əleyhinə vaksinasiyaya ictimai münasibət" sorğusu

"İşğaldan Azad olunmuş Ərazilərdə Yenidən Məskunlaşma" pilot sorğusu

BMT-nin Əhali Fondu ilə birgə "Əlilliyi olan qadınların və müharibə veteranlarının vəziyyətinin sürətli qiymətləndirilməsi" mövzusunda sorğu

"İnam indeksi-5" sorğusu

"Azərbaycanda uşaqların ailə-cəmiyyət münasibətlərində yeri və rolu" sorğusu

"Azərbaycanda mövcud ailə münasibətləri: Sosial-psixoloji təhlil" sorğusu

"Hərbi Qənimətlər Parkı", "Əhalinin vaksinasiyaya münasibəti, İcbari Tibbi Sığorta" mövzularında sorğu

"İşğaldan Azad olunmuş Ərazilərdə Yenidən Məskunlaşma" pilot sorğusu

"İşğaldan Azad olunmuş Ərazilərdə Yenidən Məskunlaşma" sorğusu

"Siyasi gündəm ictimai rəydə" sorğusu

"Qiymət artımı və milli valyuta ictimai rəydə" sorğusu

"Şənlik mərasimlərinin keçirilməsinə dair icazə"

"Vaksinasiya və COVID-19 pasportuna münasibət,

"İlin ilk 6 ayının dəyərləndirilməsi" sorğuları

"Azərbaycan kredit bazarı vətəndaş rəyində" adlı sorğu

"Əhalinin kitab oxuma davranışı" soğrusu

"Sosial həmrəylik"lə bağlı pilot soğru

"Bakı Nəqliyyat Agentliyinin fəaliyyəti ictimai rəydə" adlı sorğu

"İnam indeksi-6" sorğusu

"Vətən müharibəsinin bir ili: Postmüharibə dövrünə baxış və gözləntilər" mövzusunda sorğu

"Ağdam rayonunda məcburi köçkünlər üçün icma mərkəzinin yaradılması" layihəsi çərçivəsində sorğu

**"CyberEast – Şərq Tərəfdaşlığı regionunda kiberdayanıqlığın artırılması üzrə kibertəhlükəsizliyə dair fəaliyyət"** proqramı ilə bağlı keçirilən sorğu

"Azərbaycanda Məşğulluğa Dəstək" layihəsi çərçivəsində keçirilmiş sorğular

- **Əməkdaşlıq və tərəfdaşlıq**

Dövlət Sosial Xidmətlər Agentliyi ilə "Azərbaycanda sosial xidmətlərin qiymətləndirilməsi və əhalinin sosial xidmətlərə ehtiyac səviyyəsinin müəyyən edilməsi" layihəsi çərçivəsində əməkdaşlıq

Türkiyənin tanınmış beyin mərkəzi Sahipkıran Strateji Araşdırmalar Mərkəzi ilə əməkdaşlıq qurulub.

İnam İndeksi sorğusunun Türkiyə, Rusiya, Qazaxıstan, Gürcüstanda keçirilməsi istiqamətində sorğu kitabçası hazırlanıb və sorğunun həyata keçirilməsi istiqamətində Türkiyənin aparıcı sorğu mərkəzləri ilə əməkdaşlıq

İLESAM tərəfindən STM arasında əməkdaşlıq

Türkiyənin mühüm strateji mərkəzlərindən biri olan SETA ilə əməkdaşlıq

Türkiyənin mühüm strateji mərkəzlərindən biri olan ANAR ilə əməkdaşlıq

## 2. MALİYYƏ HESABATALRININ HAZIRLANMASININ ƏSASI VƏ MÜHÜM MÜHASİBAT UÇOTU PRİNSİPLƏR

Maliyyə Hesabatlarının hazırlanması zamanı tətbiq olunan əsas mühasibat prinsipləri aşağıda göstərilmişdir.

**Təqdimatın əsasları**

PHŞ-in hazırkı xüsusi məqsədli maliyyə hesabatları Beynəlxalq Mühasibat Uçotu Standartları Şurası ("BMUSŞ") tərəfindən dərc edilmiş Maliyyə Hesabatlarının Beynəlxalq Standartları ("MHBS") əsasında hazırlanmışdır.

Hazırkı maliyyə hesabatları PHŞ-in 1 saylı MHBS "Beynəlxalq Hesabat Standartlarının ilk dəfə tətbiq edilməsi" tələbi ilə dərc edilmiş Maliyyə Hesabatlarının Beynəlxalq Standartlarına ("MHBS") keçidin bir hissəsi olaraq hazırlanmışdır. Qeyd olunan maliyyə hesabatlarının hazırlanmasında istifadə edilən əsas uçot prinsipləri aşağıda göstərilir. Həmin prinsiplər, başqa cür göstərilmədiyi hallarda təqdim edilən bütün dövrlərə müvafiq şəkildə tətbiq edilmişdir.

PHŞ-in 31 dekabr 2021-ci ildə bitən il üzrə ilk tam müqayisəli maliyyə hesabatını hazırlaması məqsədi daşıyan 31 dekabr 2020-cu il tarixində bitən il üzrə maliyyə hesabatlarının hazırlanmasında rəhbərlik bütün mövcud MHBS ilə yanaşı artıq qüvvədə olan və ya 31 dekabr 2021-ci ilə kimi qəbul olunması nəzərdə tutulan standard şərhləri tətbiq etmişdir. Bu MHBS-lərə əsasən rəhbərlik PHŞ-in ilk tam maliyyə hesabatlarında tətbiq olunacaq uçot siyasəti haqqında mülahizə formalaşdırmışdır. Buna baxmayaraq, 31 dekabr 2021-ci il tarixinə bitən il üzrə maliyyə hesabatları üçün effektiv olan və ya erkən tətbiqi tövsiyyə olunan MHBS-lərin dəyişəcəyi və ya yeni şərhlərin əlavə ediləcəyi də istisna edilmir. Müvafiq olaraq, həmin illik dövr üçün son uçot prinsipləri maliyyə hesabatlarının tam toplusu hazırlanan zaman müəyyən olunacaq və 31 dekabr 2021-ci il tarixinə bitən il üzrə maliyyə hesabatları ilə müqayisəli məlumatları təşkil etməzdən əvvəl 31 dekabr 2020-cu il tarixinə bitən il üzrə maliyyə hesabatlarına düzəlişlər tələb edilə bilər.

**Qeyri-monetar kapital qoyuluşunun tanınması**

16 saylı MUBS "Əmlak, tikili və avadanlıqlar" - müəssisələrdən natura formasında əldə edilmiş əmlak, tikili və avadanlığın vahidini ədalətli dəyərdə kapital şəklində hesablanmasını tələb edir.

**Fasiləsizlik prinsipi**

Bu Maliyyə Hesabatları PHŞ-in yaxın gələcəkdə fəaliyyətini normal şərtlər altında davam etdirəcəyi ehtimalı nəzərə alınaraq hazırlanmışdır. Rəhbərlik hesab edir ki, PHŞ-nin yaxın gələcəkdə ləğv olunmasına, habelə fəaliyyətinin dayandırılmasına və ya Azərbaycan Respublikasının Qanunları və normativ aktları əsasında kreditorlara qarşı müdafiə axtarışına istək və ya ehtiyac olmadan fəaliyyətini davam etdirəcək.

Buna görə, aktivlər və öhdəliklər adi fəaliyyətin gedişində PHŞ-in aktivləri reallaşdırmaq və öhdəlikləri yerinə yetirmək qabiliyyətinə malik olduğu fərziyyəsi ilə hesabatlarda əks etdirilmişdir. Bəzi fərdi maliyyə hesabatları standartları, Rəhbərlik tərəfindən PHŞ-in davamlılıq prinsipinə dair dəyərləndirmənin aparılması üzrə konkret tələbləri nəzərə alınmalı olan müəyyən məsələlərin və daimilik prinsipi ilə əlaqədar bir sıra açıqlamaların hesabatlara daxil edilməsini əhatə edir.

**Davamlılıq prinsipi**

Davamlılıq prinsipi təxminlərin Rəhbərlik tərəfindən dəyərləndirilməsi zamanı naməlum olan gələcək hadisələr və ya şərtlər üzrə müəyyən fərziyyələrin edilməsi vacibdir.

**Təqdimatın digər əsasları**

Bu Maliyyə Hesabatları PHŞ-in funksional valyutası olan Azərbaycan manatı ("AZN") ilə təqdim edilmişdir. Fərdi maliyyə hesabatları tarixi dəyər prinsiplərinə əsasən hazırlanmışdır.

PHŞ mühasibat sistemini Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun şəkildə təşkil edir. Fərdi maliyyə hesabatlarını hazırlayarkən yerli mühasibat prinsiplərinə uyğun tərtib edilmiş mühasibat sistemindən istifadə edilmiş və hesabatlara MHBS-yə uyğunlaşdırılmaq məqsədilə düzəlişlər edilmişdir. Bu düzəlişlərə əməliyyatların iqtisadi mahiyyətini əks etdirmək üçün müəyyən təsnifləşdirilmələr, həmçinin müəyyən aktiv və öhdəliklərin, eləcə də gəlir və xərclərin fərdi maliyyə hesabatlarındakı bəndlərə uyğunlaşdırılması məqsədilə edilən yenidən təsnifləndirilmələr aiddir.

Əsas mühasibat prinsipləri üzrə xülasə aşağıda təqdim edilir.

**Əmlak, tikili və avadanlıq və qeyri-maddi aktivlərin faydalı ömrü**

Əmlak, avadanlıq və tikili və qeyri-maddi aktivlərin faydalı ömrünün qiymətləndirilməsi, oxşar aktivlərlə təcrübəyə əsaslanaraq Rəhbərlik tərəfindən aparılır. Aktivin faydalı ömrünü müəyyənləşdirərkən, Rəhbərlik onun ehtimal edilən istifadə müddətini, təxmin edilən texniki köhnəlməsini, fiziki aşınma və köhnəlməsini və aktivin fəaliyyət göstərdiyi fiziki mühiti nəzərə alır. Bu şərtlərdən və ya təxminlərdən hansısa birində istənilən dəyişiklik, gələcək amortizasiya dərəcələri üçün düzəlişlərə əsas verə bilər.

**Əmlak, tikili və avadanlıq**

Əsas vəsaitlər, yığılmış amortizasiyanı və tələb olunduqda dəyərsizləşmə üzrə ehtiyatı çıxmaqla, ilkin dəyərdə qeydə alınır. Satışdan yaranan gəlir və zərər, gəlirin məbləği ilə balans dəyəri arasındakı fərq kimi müəyyən edilir və mənfəət və zərərdə əks etdirilir.

Torpaq üçün amortizasiya hesablanmır. Avadanlıqlar ilkin dəyərlə yığılmış köhnəlmə və amortizasiya və hər hansı tanınmış dəyərsizləşmə zərərinin çıxılması ilə əks etdirilir. Natamam tikililərin və istifadəyə verilməyən obyektlərin amortizasiyasi istifadəyə hazır olduğu tarixdən hesablanır. Əmlak, tikili və avadanlıqlar aşağıdakı faiz dərəcələri üzrə azalan qalıq metodu ilə amortizasiyası olunur:

| **Kateqoriya** | **Köhnəlmə üzrə dərəcələr** |
|---|---|
| Mebel və ofis ləvazimatları | 20% |
| Kompüter və rabitə avadanlıqları | 20% |
| Nəqliyyat vasitələri | 25% |
| Binalar və tikililər | 7% |

Aktivin artıq köhnəldiyi və istismar müddəti başa çatdığı halda, satış üzrə təxmin edilən xərclər çıxılmaqla, PHŞ-in həmin aktivin satışı nəticəsində əldə edəcəyi təxmin edilən məbləğ aktivin qalıq dəyəridir. Aktivlərin qalıq dəyərləri və faydalı xidmət müddətləri lazım olduqda hesabat dövrünün sonunda nəzərdən keçirilir və dəqiqləşdirilir.

**Qeyri-maddi aktivlər**

Qeyri-maddi aktivlər yığılmış amortizasiyanı və dəyərsizləşmə zərərini çıxmaqla, maya dəyəri ilə qeydə alınır. Qeyri-maddi aktivlərə Proqram təminatı daxildir.

Qeyri-maddi aktivlərin istifadə müddəti məhdud və ya qeyri-müəyyən hesab edilir. Məhdud istifadə müddəti olan qeyri-maddi aktivlər iqtisadi müddəti ərzində amortizasiyaya silinir, dəyərsizləşmə əlaməti mövcud olanda isə dəyərsizləşmə baxımından qiymətləndirilir. Məhdud istifadə müddəti olan qeyri-maddi aktivlər üzrə amortizasiya

dövrü və amortizasiya metodu ən azı hər bir hesabat dövrünün sonunda yenidən nəzərdən keçirilir. Gözlənilən istifadə müddəti və ya aktiv üzrə daxil olacaq gələcək iqtisadi səmərənin gözlənilən istifadə modelində dəyişikliklər müvafiq olaraq amortizasiya dövrünü və ya metodunu dəyişdirməklə uçot təxminlərində dəyişikliklər kimi qeydə alınır. Məhdud istifadə müddəti olan qeyri-maddi aktivlər üzrə amortizasiya xərcləri mənfəət və ya zərər və digər məcmu gəlir haqqında hesabatda qeyri-maddi aktivlərin funksiyasına uyğun olaraq xərc kateqoriyasında tanınır.

Qeyri-müəyyən istifadə müddəti olan qeyri-maddi aktivlər amortizasiyaya silinmir, lakin fərdi qaydada və ya pul vəsaitlərini yaradan biznes vahidləri səviyyəsində hər il dəyərsizləşmə baxımından yoxlanılır. Qeyri-müəyyən istifadə müddətinin hələ də münasib olmasını müəyyən etmək üçün qeyri-müəyyən istifadə müddəti hər il yenidən nəzərdən keçirilir. Artıq münasib deyilsə, istifadə müddəti perspektiv qaydada qeyri-müəyyən müddətdən məhdud müddətə dəyişdirilir.

**Qeyri-maliyyə aktivlərinin dəyərsizləşməsi**

PHŞ hər bir hesabat tarixində aktivin dəyərsizləşə biləcəyini göstərən hər hansı əlamətin olub-olmadığını qiymətləndirir. Əgər hər hansı belə əlamət olarsa və ya aktiv üçün illik dəyərsizləşmə testinin aparılması tələb olunarsa, PHŞ aktivin bərpa edilə bilən məbləği barədə ehtimal edir. Aktivin bərpa edilə bilən məbləği satış məsrəfləri çıxılmaqla aktivin və ya pul vəsaitlərini yaradan vahidin (PVYV) ədalətli dəyəri və onun istifadə dəyərindən daha yüksək olanıdır və hər hansı aktiv digər aktiv və ya aktivlər qrupu tərəfindən yaradılan pul vəsaitlərinin mədaxilindən əhəmiyyətli dərəcədə asılı olmayan pul vəsaitlərinin mədaxilini yaradırsa, həmin aktiv üçün fərdi olaraq müəyyən edilir. Aktivin və ya PVYV-nin balans dəyəri onun bərpa edilə bilən məbləğindən çox olduğu hallarda, aktiv dəyərsizləşmiş hesab edilir və onun dəyəri bərpa edilə bilən məbləğədək azaldılır.

İstifadə dəyərinin qiymətləndirilməsi zamanı ehtimal edilən pul vəsaitlərinin gələcək hərəkəti pulun vaxt dəyərinin cari bazar qiymətləndirilməsini və aktivlə bağlı riskləri əks etdirən vergi öncəsi diskont dərəcəsindən istifadə etməklə cari dəyərinə endirilir.

Satış xərcləri çıxılmaqla ədalətli dəyərin təyin olunması zamanı yaxınlarda bazar əməliyyatları olmuşdursa, onlar nəzərə alınır. Belə əməliyyatlar təyin oluna bilmirsə, müvafiq qiymətləndirmə metodundan istifadə edilir. Bu hesablamalar qiymətləndirmə əmsalları, səhmləri bazarda sərbəst dövriyyədə olan törəmə müəssisələr üçün elan edilmiş səhm qiymətləri və digər ədalətli dəyər göstəriciləri ilə təsdiq olunur.

Dəyərsizləşmənin hesablanmasını PHŞ ətraflı büdcə və proqnoz hesablamaları ilə əsaslandırır. Bunlar PHŞ-in fərdi aktivlərinin aid edildiyi hər bir PVYV üçün ayrıca hazırlanır. Bu büdcə və proqnoz hesablamaları adətən beş illik müddəti əhatə edir. Daha uzun müddətlər üçün uzunmüddətli artım dərəcəsi hesablanır və beş ildən sonra layihənin gələcək pul vəsaitləri hərəkətlərinə tətbiq edilir.

Davam edən əməliyyatların dəyərsizləşmə zərərləri, o cümlədən mal-material ehtiyatlarının xalis satış dəyərinədək silinmələri maliyyə nəticələri haqqında hesabatda dəyərsizləşmiş aktivin funksiyasına uyğun xərc kateqoriyalarında uçota alınır. İstisna olaraq əvvəlcədən yenidən qiymətləndirilmiş əmlak üzrə yenidən qiymətləndirmə digər məcmu gəlirdə əks etdirilir. Bu halda dəyərsizləşmə həmçinin əvvəlki yenidən qiymətləndirmənin məbləğinədək digər ümumi gəlirdə tanınır

Qudvil istisna olmaqla aktivlər üçün əvvəllər tanınmış dəyərsizləşmə zərərlərinin artıq mövcud olmadığını və ya azaldığını göstərən əlamətlərin mövcud olub-olmadığını müəyyən etmək üçün hər bir hesabat tarixində qiymətləndirmə aparılır. Belə əlamət mövcud olarsa, PHŞ aktivin və ya PVYV-nin bərpa edilə bilən məbləğini ehtimal edir. Əvvəllər tanınmış dəyərsizləşmə zərərin effekti yalnız sonuncu dəyərsizləşmə zərəri tanındığı vaxtdan etibarən aktivin bərpa edilə bilən məbləğinin müəyyən edilməsi üçün istifadə edilmiş fərziyyələrdə hər hansı dəyişiklik olduğu halda yığışdırılır.

Zərərin effektinin yığışdırılması aktivin balans dəyərinin onun bərpa edilə bilən məbləğindən və ya əvvəlki illərdə aktiv üçün heç bir dəyərsizləşmə zərəri tanınmamış olduğu halda, amortizasiya çıxılmaqla, müəyyən ediləcək balans dəyərindən çox olmamasını təmin edəcək şəkildə məhdudlaşdırılır. Zərərin effektinin belə yığışdırılması gəlir

haqqında hesabatda tanınır, lakin aktiv yenidən qiymətləndirilmiş dəyərlə uçota alınanda, yığışdırma yenidən qiymətləndirmə artımı kimi əks etdirilir.

**Avans ödənişləri**

Avans ödənişləri dəyərsizləşmə zərərləri üzrə ehtiyatların çıxılması ilə tanınır. Avans ödənişi uzunmüddətli kimi o zaman təsnifatlaşdırılır ki, avans ödənişi ilə əlaqədar olan malların və ya xidmətlərin əldə edilməsi bir ildən sonra gözlənilir və ya avans ödənişi ilkin tanınmadan sonra uzunmüddətli aktiv kimi tanınacaq aktivə aiddir.

PHŞ-in aktiv üzərində nəzarət əldə edildiyi hallarda aktivin əldə edilməsi üçün edilən avans ödənişləri aktivin qalıq dəyərinə ötürülür. Digər avans ödənişləri xidmətlər göstərildikdən sonra mənfəət və zərər hesablarında əks etdirilir.

Avans ödənişlərinə aid olan aktivlərin, malların və ya xidmətlərin alınmaması üzrə müəyyən göstəricilər yarandıqda avans ödənişinin qalıq dəyəri müvafiq olaraq silinir və dəyərsizləşmə zərəri mənfəət və zərər hesablarında tanınır.

**Maliyyə alətləri**

PHŞ müqaviləyə əsasən maliyyə aləti üzrə öhdəlik daşıyan tərəfə çevrildiyi zaman maliyyə aktivini və ya öhdəliyini maliyyə vəziyyəti haqqında maliyyə hesabatında tanıyır. Maliyyə aktivlərinin və öhdəliklərinin adi yolla alınması və satılması zamanı hesablaşma tarixinə əməliyyat tanınır.

Maliyyə aktivləri və öhdəlikləri ilkin olaraq ədalətli dəyərlə ölçülür. İlkin tanınma zamanı, maliyyə aktivləri və öhdəliklərinin satın alınması və ya yerləşdirilməsi ilə bağlı bütün birbaşa əməliyyat xərcləri (mənfəət və zərər hesabına tanınan maliyyə aktiv və öhdəlikləri istisna olmaqla) müvafiq olaraq maliyyə aktivinin ədalətli dəyərindən azaldılır və ya maliyyə öhdəliyinin ədalətli dəyərinə əlavə edilir. Mənfəət və zərər hesabına tanınan maliyyə aktiv və öhdəliklərinin satın alınması və ya yerləşdirilməsi ilə bağlı birbaşa əməliyyat xərcləri dərhal mənfəət və zərər hesablarında tanınır.

**Maliyyə aktivləri**

Malıyyə aktivləri aşağıdakı xüsusi kateqoriyalara ayrılırlar: "mənfəət və zərər hesabına ədalətli dəyərlə tanınan" maliyyə aktivləri (MZHƏDT), "ödəniş tarixinədək saxlanılan" investisiyalar, "verilmiş kreditlər və debitor borcları" və satıla bilən maliyyə aktivləri (SMA). Təsnifləşdirmə maliyyə aktivinin növündən və saxlama məqsədindən asılıdır və ilkin tanınma zamanı təyin edilir.

**MZHƏDT maliyyə aktivləri**

Ticarət məqsədləri ilə saxlanılan maliyyə aktivləri, "mənfəət və zərər hesabına ədalətli dəyərlə tanınan maliyyə aktivləri" kateqoriyasına aid edilirlər. Yaxın gələcəkdə satılması nəzərdə tutulduqda, əldə edilən maliyyə aktivləri satış məqsədləri ilə saxlanılan aktivlər kateqoriyasında təsnifləşdirilir.

Törəmə maliyyə alətləri də xüsusilə nəzərdə tutulmuş alətlər və effektiv hedcinq alətləri istisna olmaqla, satış məqsədləri ilə saxlanılan aktivlər kateqoriyasında təsnifləşdirilir. Satış məqsədləri ilə saxlanılan aktivlər üzrə yaranan mənfəət və zərərlər müvafiq olaraq mənfəət və zərər hesablarında tanınır.

**Pul vəsaitləri və onların ekvivalentləri**

Pul vəsaitləri və onların ekvivalentlərinə nağd pul, banklarda yerləşdirilən əmanətlər və bitmə müddəti üç ay və ya daha az olan qısamüddətli və yüksək likvidli investisiyalar daxildir. Hesabat tarixindən sonra ən az on iki ay ərzində dəyişdirilmək və ya öhdəliyin əvəzini ödəmək məqsədləri ilə istifadəsi məhdudlaşdırılmış qalıqlar digər uzunmüddətli aktivlərə daxil edilir.

**Debitor borcları**

Debitor borcları effektiv faiz dərəcəsi istifadə edilməklə amortizasiya olunmuş dəyər ilə təqdim edilir. Debitor borclarının dəyərsizləşməsi üzrə ehtiyat, PHŞ-in debitorlardan alınacaq vəsaitlərinin ilkin razılaşmaya uyğun olaraq ödənilməli olan bütün məbləğləri toplaya bilməyəcəyi barədə obyektiv sübut olduqda müəyyən edilir. Ehtiyatın məbləği aktivin qalıq dəyəri ilə təxmin edilən gələcək pul vəsaiti axınlarının cari effektiv faiz dərəcəsi ilə diskontlaşdırılmış dəyər arasındakı fərqdir. Ehtiyatın məbləği məcmu gəlirlər hesabatında tanınır.

**Debitor borclarının dəyərsizləşməsi üzrə ehtiyatlar**

Debitor borclarının dəyərsizləşməsi üzrə ehtiyatlar istehlakçıların debitor borclarının yığılması ehtimalının rəhbərlik tərəfindən qiymətləndirilməsinə əsaslanır. İstehlakçıların əhəmiyyətli maliyyə çətinlikləri, müqavilə üzrə tərəflərin müflisləşmə və ya maliyyə strukturunun yenidən təşkilinə məruz qalması ehtimalı və defolt və ya ödənişlərin gecikdirilməsi debitor borclarının potensial olaraq dəyərsizləşmiş olmasını əks etdirən göstəricilər hesab edilir. Əgər əsas müştərinin ödəniş qabiliyyətində pisləşmə baş verərsə və ya bu faktiki defolt təxminlərindən yuxarı olarsa, faktiki nəticələr bu təxminlərdən fərqlənə bilər.

Əlavə olaraq, kiçik debitor borclarının böyük qismi oxşar qruplara birləşdirilir və məcmu şəkildə dəyərsizləşmə üzrə qiymətləndirilir. 12 aydan artıq dövriyyədə olan debitor borcları ümumilikdə müvafiq dəyərsizləşmə ehtiyatına silinir.

Debitor borcları üzrə əlavə pul vəsaitlərinin bərpası gözlənilmədikdə, debitor borcları müvafiq ehtiyatlara silinir.

Dəyərsizləşmə üzrə zərərlərə qarşı qiymətləndirilən debitor borcları üzrə pul vəsaitlərinin gələcək hərəkəti həmin aktivlərin müqavilə üzrə pul vəsaitlərinin hərəkətinə, rəhbərliyin keçmişdə baş vermiş zərər halları nəticəsində vaxtı keçəcək məbləğlərin həcmi ilə münasibətdə təcrübəsinə və vaxtı keçmiş məbləğlərin geri ödənilməsinə əsasən təxmin edilir. Keçmiş dövrlərə təsir göstərməyən cari şəraitin təsirini əks etdirmək və cari dövrdə mövcud olmayan keçmiş şəraitin təsirini aradan qaldırmaq məqsədilə əvvəlki təcrübə müşahidə edilə bilən cari məlumatlara əsasən tənzimlənir.

**Maliyyə aktivlərinin dəyərsizləşməsi**

Hər bir hesabat tarixinə PHŞ maliyyə aktivinin və ya maliyyə aktivləri qrupunun dəyərsizləşməsi halının baş verməsinin obyektiv sübutunun olub-olmamasını dəyərləndirir.

Əgər maliyyə aktivinin və ya maliyyə aktivləri qrupunun dəyərsizləşməsi ehtimal edilirsə və yalnız ilkin tanınma tarixindən sonra baş vermiş bir və ya bir neçə hadisə nəticəsində dəyərsizləşmənin obyektiv sübutu yaranmışdırsa (baş vermiş "zərər hadisəsi") və zərər hadisəsi (və ya hadisələri) bu maliyyə alətləri və ya maliyyə alətləri qrupu üzrə edilən gələcək pul vəsaitlərinin axınına təsir göstərirsə və bu təsirin etibarlı şəkildə təxmin edilməsi mümkündürsə bu zaman belə maliyyə aktivləri və ya maliyyə aktivləri qrupu dəyərsizləşmiş sayılır.

Dəyərsizləşmənin sübütu kimi borc götürənin və ya borc götürənlər qrupunun əhəmiyyətli maliyyə çətinlikləri ilə üzləşməsi. faiz və əsas borcların ödənilməməsi və ya ödənilməsində gecikmələrin yaranması, müştərilərin iflas etməsi və ya digər yenidən təşkilati strukturun dəyişdirilməsi və bu zaman təxmin edilən gələcək pul vəsaitlərinin azalmasına dair konkret məlumatın olması ehtimalının yaranması, məsələn borcun ödənilməməsində şəraitin və iqtisadi şərtlərin dəyişməsi halları götürülə bilər.

**Maliyyə aktivlərinin uçotunun xitamı**

PHŞ maliyyə aktivi müqaviləsi üzrə pul vəsaitlərinin alınması hüququnun başa çatması və ya sahiblik hüququ ilə bağlı bütün əhəmiyyətli risk və mükafatların digər tərəfə ötürülməsi halında maliyyə aktivinin tanınmasına xitam verir. PHŞ sahiblik hüququ ilə bağlı bütün əhəmiyyətli risk və üstünlükləri digər tərəfə ötürdükdə,transfer edilmiş aktiv üzərində nəzarəti saxlayırsa, bu zaman saxlanılmış maraqlar hesabatlarda aktiv kimi tanınır və müvafiq şəraitdə PHŞ-ə ödənilməsi ehtimal edilən məbləğlər də müvafiq olaraq öhdəlik kimi tanınır.

Əgər PHŞ-yə transfer edilən maliyyə aktivinin sahiblik hüququ ilə bağlı bütün əhəmiyyətli risk və mükafatları özündə saxlayırsa, bu zaman aktivin tanınması davam edir və əlavə olaraq girov qoyularaq götürülmüş vəsaitlər də borc məbləği kimi maliyyə vəziyyəti hesabatında tanınır.

Maliyyə aktivi hesabatlardan tam şəkildə çıxarıldıqda, aktivin qalıq dəyəri ilə onun transferindən alınan və ya alınması nəzərdə tutulan məbləğlərin cəmi arasındakı fərq, məcmu gəlirlər hesabatlarında xitam anınadək tanınmış və kapital hesablarında uçotu aparılan mənfəət və zərər məbləğləri dərhal mənfəət və zərər hesablarında tanınır.

Maliyyə aktivi hesabatlardan qismən çıxarıldıqda (məsələn, PHŞ-in transfer edilmiş aktivin bir hissəsini geri almaq seçimi olduqda və ya bu aktiv üzrə sahiblik hüququ ilə bağlı bütün əhəmiyyətli risk və mükafatların digər tərəfə ötürülərək yalnız cüzi bir hissənin saxlanılması və bunun nəticəsində nəzarətin PHŞ qalması halları), PHŞ aktivin qalıq dəyərini cari iştirak ilə bağlı tanınması davam edən qism və transfer edilən hissələrin nisbi ədalətli dəyərinə görə təyin edilmiş və maliyyə vəziyyəti hesabatında tanınmayan qismdən ibarət iki hissəyə ayırır. Aktivin tanınmasına xitam verilmiş qisminə aid edilən qalıq dəyəri ilə onun transferindən alınan məbləğlərin cəmi arasındakı fərq, məcmu gəlirlər hesabında xitam anınadək tanınmış mənfəət və zərər məbləğləri dərhal mənfəət və zərər hesablarında tanınır. Məcmu gəlirlər hesabında tanınmış mənfəət və zərər məbləğlərini, aktivin tanınmasına xitam verilən qismi ilə tanınması davam edən qismi arasında bölərkən bu qismlərin ədalətli dəyərlərinin nisbətləri əsas götürülür.

**Maliyyə öhdəlikləri**

Maliyyə öhdəlikləri "MZHƏDT maliyyə öhdəlikləri" və "digər maliyyə öhdəlikləri" olmaqla iki hissəyə ayrılır.

MZHƏDT maliyyə öhdəlikləri

Maliyyə öhdəlikləri ticarət məqsədləri ilə saxlanıldıqda və ya xüsusi olaraq MZHƏDT şəklində nəzərdə tutulduqda MZHƏDT maliyyə öhdəlikləri kateqoriyasına aid edilirlər.

MZHƏDT maliyyə öhdəlikləri ədalətli dəyərlə təqdim edilir və yenidən ölçülmə zamanı yaranan mənfəət və zərər məbləğləri müvafiq olaraq mənfəət və zərər hesablarında tanınır. Mənfəət və zərər hesabında tanınan xalis mənfəət və ya zərərə maliyyə öhdəliyi üzrə ödənilən bütün faizlər daxildir və bu məbləğ məcmu gəlirlər hesabatında "digər gəlirlər/(zərərlər)" bəndində öz əksini tapır.

**Digər maliyyə öhdəlikləri**

Digər maliyyə öhdəlikləri ilkin olaraq bütün əməliyyat xərcləri çıxıldıqdan sonra ədalətli dəyər ilə ölçülür.

Digər maliyyə öhdəlikləri növbəti dövrlərdə effektiv faiz dərəcəsi metodundan istifadə olunmaqla amortizasiya edilmiş maya dəyərində ölçülür və faiz xərcləri effektiv gəlir kriteriyasına əsaslanaraq tanınır.

Effektiv faiz dərəcəsi metodu, maliyyə öhdəliyinin amortizasiya olunmuş maya dəyərinin hesablanılması və faiz xərci məbləğinin müvafiq dövrlər üzrə paylaşdırılmasını nəzərdə tutur. Bu metod maliyyə öhdəliyinin nəzərdə tutulan istifadə müddəti üzrə təxmin edilən gələcəkdə ödəniləcək vəsaitləri və ya müvafiq olduqda, daha qısa müddət üzrə maliyyə öhdəliyinin qalıq dəyərini dəqiq diskontlaşdıran dərəcədir.

**Kreditor borcları**

Kreditor borcları təchizatçılardan mal və ya xidmətlərin yerinə yetirilməsi əvəzində ödənilmiş öhdəliklərdir. Əgər ödəmə öhdəliyi bir il və ya daha az müddətdə ödənilməlidirsə, (yaxud cəmi iş müddətindən artıq deyilsə) kreditor borcları cari öhdəliklər kimi təsnif olunur.

Kreditor borcları effektiv faiz dərəcəsi istifadə edilməklə amortizasiya olunmuş dəyər ilə təqdim edilir.

**Maliyyə öhdəliklərinin tanınmasına xitam verilməsi**

PHŞ maliyyə öhdəliklərinə yalnız PHŞ-in öhdəliklərinin silinməsi, ləğv edilməsi və ya müddətinin başa çatması hallarında xitam verir. Tanınmasına xitam verilmiş maliyyə öhdəliyinin qalıq dəyəri ilə ödənilmiş və ya ödəniləcək məbləğlərin cəmi arasındakı fərq dərhal mənfəət və zərər hesablarında tanınır.

**Maliyyə aktiv və öhdəliklərin əvəzləşdirilməsi**

Maliyyə aktivləri və öhdəlikləri yalnız PHŞ-in aktiv və öhdəliklərin əvəzləşdirilməsi üçün müəyyən edilmiş hüququ olduqda və ya eləcə də PHŞ-in müqavilə üzrə əvəzləşdirməni aparmaq və ya eyni zamanda aktivi realizasiya edərək öhdəliyi ödəmək niyyəti mövcud olduğu hallarda həyata keçirilə bilər. Maliyyə aktivlərinin müvəqqəti olaraq qarşı tərəfə transfer edilməsi zamanı bu maliyyə aktivləri qarşı tərəfin öhdəliyi ilə əvəzləşdirilmir.

**Ehtiyatlar**

Ehtiyatlar, PHŞ keçmiş hadisələr nəticəsində cari hüquqi və ya əsaslanmış öhdəliyə malik olduqda, öhdəliyin yerinə yetirilməsi üçün iqtisadi səmərə yaradan ehtiyatların azalma ehtimalı olduqda və öhdəlik məbləği etibarlı şəkildə qiymətləndirildikdə uçota alınır.

Ehtiyat kimi tanınan məbləğ hesabat dövrünün sonunda müvafiq risklər və qeyri-müəyyənliklər də nəzərə alınmaqla cari öhdəliyi yerinə yetirmək üçün tələb olunan məbləğin təxmini göstəricisidir. Ehtiyatı hesablayarkən cari öhdəliyi yerinə yetirmək üçün tələb olunan pul vəsaitlərinin təxminindən istifadə edilirsə, ehtiyatın qalıq dəyəri bu pul vəsaitlərinin cari dövrə olan diskontlaşdırılmış dəyərinin cəminə bərabərdir (pulun vaxt dəyərinin əhəmiyyət kəsb etdiyi hallarda).

Ehtiyatın qarşılanması üçün tələb edilən iqtisadi faydaların tam və ya qismən üçüncü şəxslərin hesabına geri qaytarılması gözlənilirsə, debitor borc aktiv kimi yalnız o halda tanınır ki, üçüncü tərəfin kompensasiya ödəməsi ehtimalı var və bu məbləğ etibarlı şəkildə təxmin edilə bilər.

**Vergilər**

PHŞ, publik hüquqi şəxs kimi Vergi Məcəlləsinin 106.1.4-cü bəndinə əsasən mənfəət vergisindən, 199.1-ci bəndinə uyğun olaraq əmlak vergisindən və 207.1.2-ci bəndinə uyğun olaraq torpaq vergisinin ödənilməsi öhdəliyindən azaddır.

Azərbaycan Respublikasının Vergi Məcəlləsinin 106. Maddəsinə əsasən- Azadolmalar və güzəştlər

Maddə 106.1.4. dövlət hakimiyyəti orqanlarının, büdcə təşkilatlarının, yerli özünüidarəetmə orqanlarının və dövlətin adından yaradılan publik hüquqi şəxslərin gəlirləri (sahibkarlıq fəaliyyətindən gəlir istisna olmaqla);

Azərbaycan Respublikasının Vergi Məcəlləsinin 207. Maddəsinə əsasən- Vergi güzəştləri

Maddə 207.1.2. Dövlət hakimiyyəti orqanlarının, büdcə təşkilatlarının və yerli özünü idarəetmə orqanlarının, Azərbaycan Respublikası Mərkəzi Bankının və onun qurumlarının, dövlətin adından yaradılan publik hüquqi şəxslərin (sahibkarlıq fəaliyyəti məqsədləri üçün istifadə olunan torpaqlar istisna olmaqla), habelə Azərbaycan Respublikasının Dövlət Neft Fondunun mülkiyyətində və ya istifadəsində olan torpaqlar;

PHŞ işçilərə əmək haqqı və oxşar ödənişlər üzrə fərdi gəlir vergisini və sosial ödənişləri hesablayır və bəyan edir. Hazırki maliyyə hesabatları rəhbərliyin vergi məsələləri üzrə ehtimal və təxminlərinə istinad edilərək hazırlanmışdır.

**Dövlət tərəfindən ayrılan vəsait**

PHŞ-in İdarə Heyətinin sədri gələcəkdə gözlənilən və PHŞ-in fəaliyyətinin davam etdirməsi üçün tələb edilən maliyyə vəsaitini cəlb edilməsi məqsədilə dövlət büdcəsi təsdiq edildikdən sonra xərclərin smetasını müvafiq formada Azərbaycan Respublikasının Maliyyə Nazirliyinə təqdim edilir, buna uyğun olaraq smetada qeyd edilimiş vəsaitə uyğun olaraq PHŞ-yə müvafiq aralıqlarla cəlb edilir.

PHŞ-in əldə etdiyi vəsait (dövlət büdcəsindən və dövlətə məxsus Dövlət tərəfindən ayrılmış vəsaitlər, PHŞ-nin istismar fəaliyyətləri ilə əlaqəli olan müəyyən şərtlərindən keçmiş və gələcək uyğunluq müqabilində dövlətin müəssisəyə resurs ötürülməsidir. Dövlət tərəfindən ayrılan vəsaitlər əsasən pul qoyuluşları, digər dövlət müəssisələrinin aktivlərinin bütövlükdə və ya qismən köçürülməsi formasında həyata keçirilir. Dövlət tərəfindən ayrılan vəsaitlər hökümət tərəfindən müəyyən meyarlara uyğun şəxslərin və ya bir sıra müəssisələrin xüsusiyyətlərinə aid iqtisadi mənfəət təmin etmək üçün nəzərdə tutulmuş tədbirdir.

PHŞ, dövlət vəsaitlərini yalnız PHŞ özlərinə aid olan şərtləri yerinə yetirəcəyinə və həvalə olunacağına dair kifayət qədər güvən olduğunda tanıyır. Dövlət vəsaitləri müəssisənin xərclər kimi təqdim etdiyi dövrlərdəki mənfəət və zərər hesabatında sistemli əsasda tanınır ki, bu da həmin xərclərin kompensasiya edilməsini nəzərdə tutur.

**Nizamnamə kapitalı**

PHŞ-in nizamnamə kapitalı Nizamnaməyə uyğun olaraq, təsisçinin qərarı ilə PHŞ-in mülkiyyətinə verilmiş və qanunla müəyyən edilmiş qaydada qiymətləndirilmiş aktivlərin balans dəyərindən və dövlət tərəfindən ayrılmış nağd vəsaitdən təşkil olunur.

**Gəlirin tanınması**

Gəlir (a) gələcək iqtisadi faydaların və ya xidmətin PHŞ-ə yönəldiləcəyinə; və (b) bu faydaların etibarlı şəkildə ölçüləcəyinə güman edildikdə tanınır. Gəlir alınmış və ya alınacaq vəsaitlər nəzərə alınmaqla ədalətli dəyərdə təqdim edilir. PHŞ-in gəlir mənbəyi dövlət büdcəsindən ayrılan vəsaitdən, fəaliyyətindən əldə etdiyi gəlirdən, ianələrdən, qrantlardan, cəlb edilən investisiyalardan və qanuna uyğun əldə etdiyi digər vəsaitlərdən formalaşır.

**İşçilərin mükafatları**

Əmək haqları, Dövlət Sosial Müdafiə fonduna ödənilən vəsaitlər, illik ödənilən məzuniyyət haqları və xəstəlik müavinətləri, mükafatlar və qeyri-monetar mükafatlar, PHŞ-in işçilərinin bu vəsaitləri almaq üçün işlədikləri dövr üzrə hesablanır.

**Xarici valyuta əməliyyatları**

PHŞ-in əməliyyat valyutası onun fəaliyyət göstərdiyi iqtisadi mühitin valyutası olan Azərbaycan manatıdır.

Xarici valyutada olan monetar aktiv və öhdəliklər, hesabat tarixinə mövcud olan ARMB-nin valyuta məzənnəsinə uyğun olaraq Azərbaycan Manatına çevrilir. Xarici valyutada aparılan əməliyyatlar isə əməliyyat tarixinə mövcud olan valyuta məzənnəsinə uyğun olaraq manat ekvivalentinə çevrilir.

31 dekabr 2021-ci il tarixinə qüvvədə olan valyuta məzənnələri: 1 ABŞ dolları = 1,7000 AZN və 1 Avro = 2,0032.

## 3. DÜZƏLİŞ EDİLMİŞ MALİYYƏ HESABATLARININ STANDARTLARININ (MHBS) TƏTBİQİ

Maliyyə hesabatlarında hesabat olunan məbləğlərə təsir edən MHBS-lərə düzəlişlər. Cari ildə hazirki maliyyə hesabatlarında göstərilən məbləğlərə təsir edən aşağıdakı yeni və düzəliş edilmiş Standartlar və Şərhlər qəbul edilmişdir.

- MHBS 10, MHBS 12 VƏ MUBS 27-yə düzəlişlər - İnvestisiya müəssələri
- MUBS 32-yə düzəlişlər - Maliyyə Aktivlərinin və Maliyyə öhdəliklərinin əvəzləşdirilməsi
- MUBS 36-ya düzəlişlər - Qeyri-maliyyə aktivləri üçün bərpa dəyəri ilə bağlı açıqlamalar
- MUBS 39-a düzəlişlər - Törəmə maliyyə alətlərinin ötürülməsi və hecinq uçotunun dəvam etdirilməsi
- MHBSKŞ 21 - İcbari ödənişlər.Bu düzəlişlər və şərhlər PHŞ-in maliyyə hesabatlarına heç bir təsir göstərməmişdir. Buraxılmış, lakin hələ qüvvəyə minməmiş yeni və düzəliş edilməmiş MHBS-lər PHŞ buraxılmış, lakin hələ qüvvəyə minməmiş aşağıdakı yeni və düzəliş edilmiş MHBS –ləri tətbiq etməmişdir:
- MUBS 19-a düzəlişlər - Müəyyən olunmuş müavinat planları: İşçilər tərəfindən ödəmələr
- 2010-2012-ci illəri əhatə edən dövr üzrə MHBS-lərə illik düzəlişlər
- 2011-2013-cü illəri əhatə edən dövr üzrə MHBS-lərə illik düzəlişlər
- 2012-2014-cü illəri əhatə edən dövr üzrə illik düzəlişlər
- MHBS 14 Tariflərin tənzimlənməsi üzrə təxirə salınmış hesablar
- MUBS 16 və MUBS 38-ə düzəlişlər - Məqbul Köhnəlmə və Amortizasiya metodlarının aydınlaşdırılması
- MHBS 11-ə düzəlişlər - Birgə Əməliyyatlarda İştirak Paylarının Alışının uçotu
- MHBS 10 və MUBS 28-ə düzəlişlər - İnvestor ilə Asılı müəssə və ya Birgə Müəssisə arasındakı Aktivlərin Satışı və ya Ötürülməsi
- MHBS 15 Müştərilərlə Müqavilə üzrə Gəlirlər
- MHBS 9 Maliyyə Alətləri

MHBS 9 Maliyyə Alətləri, 2009-cu ilin noyabr ayında buraxılmış MHBS 9 maliyyə aktivlərinin təsnifatı və qiymətləndirilməsi üçün yeni tələbləri təqdim edir. Maliyyə öhdəliklərinin təsnifatı və ölçülməsi, habelə tanınmasının dayandırılması ilə bağlı yeni tələblərin daxil edilməsi məqsədilə 2010-cu ilin oktyabrında ,ümumi hecinq uçotu ilə bağlı yeni tələblərin daxil edilməsi üçün 2013-cü ilin noyabrında MHBS 9-a düzəliş olunmuşdur. 2014-cü ilin iyul ayında BMUSŞ əsasən maliyyə aktivləri üçün dəyərsizləşmə tələblərini, habelə təsnifləşdirmə və ölçülmə tələbləri ilə bağlı məhdud düzəlişləri tətbiq edən MHBS 9-un yekun versiyası hazırlanmışdır. MHBS 9-un məqsədi Maliyyə Alətləri Tanıma və Ölçülmə adlı 39-u əvəz etməkdən ibarətdir.

**Tanınma və ölçülmə**

**MHBS 9 üzrə əsas tələblər aşağıdakılardan ibarətdir:**

- Maliyyə aktivlərinin təsnifləşdirilməsi və ölçülməsi. Maliyyə aktivləri onların saxlandıqları biznes modelinə və müqavilə üzrə pul daxilolmalarının yığılması məqsədini daşıyan biznes modeli çərçivəsində saxlanılan və müqavilə üzrə pul daxilolmaları yalnız əsas borc məbləği, eləcə də ödənilməmiş əsas borc məbləği üzrə faizlərin ödənilməsindən ibarət borc alətləri adətən ilkin tanınmadan sonra amortizasiya edilmiş dəyərlə ölçülür. MHBS 9-un 2014-cü il versiyası müqavilə üzrə pul vəsaitlərinin toplanması və maliyyə aktivlərinin satılmasından,eləcə də ilkin tanınmadan sonra digər məcmu gəlirlər hesabatında ədalətli dəyərlə tanınan belə maliyyə aktivləri üzrə müəyyən olunmuş tarixlərdə qalıq borclar üzrəəsas borc və faiz məbləğlərinin toplanmasından ibarət olan biznes modeli çərçivəsində borc alətləri üçün "digər məcmu gəlirlər üzrə ədalətli dəyər" kateqoriyasını təqdim edir. Bütün digər borc və kapital investisiyaları ədalətli dəyərlə ölçülür. Bundan başqa, Maliyyə alətləri haqqında MHBS 9-a əsasən müəssisələr yalnız dividend üzrə gəliri mənfəət və ya zərər hesablarında tanımaq şərtilə kapital investisiyasının (ticarət üçün saxlanılmayan) ədalətli dəyərində sonrakı dəyişikliklərin digər məcmu gəlirlər haqqında hesabatda təqdim edilməsi ilə bağlı yekun seçim edə bilərlər.

- Maliyyə öhdəliklərinin təsnifləşdirilməsi və ölçülməsi. Maliyyə öhdəlikləri MUBS 39-da olduğu kimi eyni tərzdə təsnifləşdirilir, lakin müəssisənin öz kredit riskinin ölçülməsinə tətbiq olunan tələblər üzrə fərqlər möcvuddur. MHBS 9 maliyyə öhdəliyinin kredit riskindəki dəyişikliklərə şamil olunan belə öhdəliyin ədalətli dəyərində dəyişiklik məbləğinin (öhdəliklərin kredit riskində dəyişikliklərin təsirinin digər məcmu gəlirlər haqqında hesabatda tanınması mənfəət və ya zərər üzrə uçot uyğunsuzluğu əmələ gətirmiyənədək) digər məcmu gəlirlərdə tanınmasını tələb edir. Maliyyə öhdəliyinin kredit riskinə şamil olunan ədalətli dəyərdə dəyişikliklər daha sonra mənfəət və ya zərər üzrə yenidən təsnifləşdirilir.
- Dəyərsizləşmə MHBS 9-un 2014-cü il versiyası maliyyə aktivlərinin dəyərsizləşməsi ilə bağlı MUBS 39-dakı "çəkilmiş kredit zərərləri modeli " nin əksinə olaraq " gözlənilən kredit zərərləri modeli" ni təqdim edir. Gözlənilən kredit zərərləri modeli kredit riskindəki dəyişiklikləri əks etdirmək üçün müəssisə tərəfindən belə kredit zərərlərinin və onlarla bağlı dəyişikliklərin ilkin tanınma dövründən başlayaraq hər hesabat tarixində uçota alınmasını tələb edir. Digər sözlərlə desək, kredit hadisəsinin kredit zərəri tanınmamışdan əvvəl baş verməsi artıq vacib deyil.
- Hecinqin uçotu. Maliyyə və qeyri-maliyyə risklərinin hecinqi zamanı müəssisələr tərəfindən riskin idarə edilməsi fəaliyyətlərinin yerinə yetirilmə üsullarını açıqlayan yeni hecinq uçotu modeli təklif edir. MHBS 9-a əsasən hecinq uçotuna uyğun olan əməliyyatların növləri, xüsusilə hecinq alətlərinə aid olan alətlərin növlərinin artırılması və hecinq uçotunun tətbiq olunduğu qeyri-maliyyə alətlərinin risk kompenentlərinin növləri ilə bağlı daha geniş imkanlar verilir. Bundan əlavə, effektivlik testi öyrənilmiş və "iqtisadi münasibətlər"in əsasları iləəvəzlənmişdir. Həmçinin, keçmiş dövrlərə şamil olunmaqla qiymətləndirmə artıq tələb edilmir. Müəssisədə riskin idarə edilməsi fəaliyyətlərinə dair güclü açıqlama tələbləri tətbiq olunmuşdur.
- Tanınmanın dayandırılması. Maliyyə aktivlərinin və öhdəliklərinin tanınmasının dayandırılması üçün tələblər MUBS 39-dan köçürülmüşdür.

**İcarə**

Mülkiyyət hüququndan irəli gələn risklərin və səmərələrin əhəmiyyətli hissəsinin icarəyə verəndə qalması hallarındakı icarə, əməliyyat icarəsi kimi təsnifləşdirilir. Əməliyyat icarəsi müqaviləsi üzrə ödənişlər bütün icarə müddəti üzrə bərabər hissələrə bölünməklə, mənfəət və zərərlər haqqında hesabatda əks etdirilir.

## 4. GƏLİRLƏR

| | 31 dekabr 2021-ci il | 31 dekabr 2020-ci il |
|---|---|---|
| | | AZN ilə |
| Dövlət büdcəsində ayırmalar hesabına PHŞ-in hesabına mədaxil üzrə məqsədli istifadə edilmiş hissəsi | 4 689 023,10 | 1 099 662,00 |
| Alıcı və sifarişçilər qarşısında götürülmüş öhdəliklərin yerinə yetirilməsi | 99 074,96 | 126 241,30 |
| **Cəmi gəlirlər** | **4 788 098,06** | **1 225 903,30** |

## 5. DÖVLƏT TƏRƏFİNDƏN AYRILAN VƏSAİT

| | 31 dekabr 2021-ci il | 31 dekabr 2020-ci il |
|---|---|---|
| | | AZN ilə |
| Dövlət tərəfindən ayrılan vəsait | 4 662 154,00 | 1 099 662,00 |
| Dövlət tərəfindən ayrılan vəsaitin Nizamnamə kapitalına yönləndirilən hissəsi | | 1 180 338,00 |
| **Cəmi Dövlət tərəfindən ayrılan vəsait** | **4 662 154,00** | **2 280 000.00** |

## 6. PUL VƏSAİTLƏRİ VƏ ONLARIN EKVİVALENTLƏRİ

| | 31 dekabr 2021-ci il | 31 dekabr 2020-ci il |
|---|---|---|
| | | AZN ilə |
| Kassada olan nağd pul vəsaitləri | | |
| Yolda olan pul vəsaitlərti | | |
| Bank hesablarında pul vəsaitləri | 1 398 525,05 | 671 711,29 |
| **Cəmi Pul Vəsaitləri** | **1 398 525,05** | **671 711,29** |
| Bank hesablarında pul vəsaitlərindən: | | |
| • Milli valyutada bank hesabları | 1 383 513,94 | 662 699,93 |
| • Xarici valyutalarda bank hesabları | 15 011,11 | 9 011,36 |

2019-cu il dövlət büdcəsindən PHŞ-yə 1 900 000,00 manat (bir milyon doqquz yüz manat 00 qəp.) büdcə vəsaiti ayrılmışdır. Ayrılmış vəsaitdən 1 450 000,00 manat (bir milyon dörd yüz əlli min manat 00 qəp.) büdcə vəsaiti xərc edilmişdir. Mərkəz tərəfindən vəsaitlərin təyinatı üzrə düzgün xərclənməsinin, şəffaf uçot və hesabat sisteminin qurulması, eləcədə büdcə ayırmalarına səmərəli yanaşılması hesabına 1 450 000,00 manat büdcə vəsaitinin qənaət edilərək, təşkilatın hesabına köçürülməsi üçün sifariş verilməmişdir. Yekun olaraq, həmin vəsaitdən 01.01.2020-ci il tarixinə müəssisənin hesablaşma hesabında 61 819,16 manat (altmış bir min səkkiz yüz on doqquz manat 16 qəp.) pul vəsaiti qalmışdır.

2020-ci il dövlət büdcəsindən PHŞ-yə 2 735 000,00 manat (iki milyon yeddi yüz otuz beş manat 00 qəpik) büdcə vəsaiti ayrılmışdır. Ayrılmış vəsaitdən 2 280 000,00 manat (iki milyon iki yüz səksən min manat 00 qəpik) büdcə vəsaiti xərc edilmişdir. Mərkəz tərəfindən vəsaitlərin təyinatı üzrə düzgün xərclənməsinin, şəffaf uçot və hesabat sisteminin qurulması, eləcədə büdcə ayırmalarına səmərəli yanaşılması hesabına 455 000,00 manat büdcə vəsaitinin qənaət edilərək, təşkilatın hesabına köçürülməsi üçün sifariş verilməmişdir. Yekun olaraq, həmin vəsaitdən 01.01.2021-ci il tarixinə müəssisənin hesablaşma hesabında 543 885,93 manat (Beş yüz qırx üç min səkkiz yüz səksən beş manat 93 qəpik) pul vəsaiti qalmışdır. Əlavə olaraq digər alıcı və sifarişçilər üçün təyinatı üzrə aparılmış sorğu və təhlillər müqabilində 118 814,00 manat və 7 427,30 manat (4 369,00 dollar) məbləğində vəsait daxil olmuşdur.Yekun olaraq həmin vəsaitdən 01.01.2021-ci il tarixinə müəssisənin hesablaşma hesabında 118 814,00 manat və 6 971,36 manat (4 100,80 dollar) pul vəsaiti qalmışdır .

2021-ci ildə Mərkəzin fəaliyyətinin təmin olunması məqsədilə Maliyyə Nazirliyi ilə imzalanmış müqavilə ilə müvafiq il üzrə smeta məbləği 2 753 546,00 manat təsdiq olunmuşdur. Müqavilə üzrə təsdiq olunmuş vəsait dövlət büdcəsindən 2 247 154,00 manat və Mərkəzin hesabına 2020-ci ildə dövlət büdcəsindən maliyyələşdirilmiş, lakin tam istifadə olunmamış 506 392,00 manat hesabına təmin olunmuşdur. İnzibati binanın əsaslı təmir və yenidən qurulması üçün dövlət büdcəsindən 2 415 000,00 manat vəsait Mərkəzin hesabına köçürülmüşdür.

PHŞ-in Cari Bank hesabları aşağıda əks etdirilmişdir.

Azərbaycan Beynəlxalq Bankı Nəsimi filialı:

| | **31 dekabr 2021-ci il** | **31 dekabr 2020-ci il** |
|---|---|---|
| | | **AZN ilə** |
| AZN hesabı üzrə | 1 362 400,62 | 625 206,19 |
| AZN Korporativ kart hesab üzrə | 20 513,32 | 37 493,74 |
| USD hesab | 15 002,36 | 9 011,36 |
| EURO | 8,75 | |
| Büdcədənkənar hesab | 600,00 | |
| **Cəmi məbləğ** | **1 398 525,05** | **671 711,29** |

## 7. EHTİYATLAR

| | 31 dekabr 2021-ci il | 31 dekabr 2020-ci il AZN ilə |
|---|---|---|
| Ehtiyatlar, ATƏ-lar | 249 858,39 | 166 538,35 |
| | **249 858,39** | **166 538,35** |

PHŞ-nin balansıda əks etdirilən ehtiyat məbləğlərinin açıqlaması:

Bu məbləğə müztəlif avadannlıqlar, gündəlik istifadə edilən ofis, təmizlik ləvazimatları, tədbirlər üçün nəzərdə tutulmuş səs qurğuları, dəftərxana ləvazimatları daxildir.

| | | |
|---|---|---|
| PHŞ-nin öz hesabına alınan ehtiyatlar | 240 893,97 | 105 980,53 |
| Əvəzsiz alınan, PHŞ-yə təqdim edilən ehtiyatlar | | |
| Məxaric (silinmə, istifadə edilən ehtiyatlar) | (157 573,93) | (30 456,41) |
| 2019-cu il sonuna qalıq | | 91 014,23 |
| **Cəmi** | **249 858,39** | **166 538,35** |

## 8. ƏSAS VƏSAİTLƏR

Əmlak, avadanlıq və qeyri-maddi aktivlər aşağıdakılardan ibarətdir:

| | Binalar, qurğular | Maşın və avadanlıq | Nəqliyyat vasitələri | Kapitallaşdırma | Cəmi |
|---|---|---|---|---|---|
| 31 dekabr 2019-cu il tarixinə ilkin dəyər | 1 145 970,00 | 87 907,09 | 120 000,00 | | **1 353 877,0** |
| Yığılmış amortizasiya | (80 217,90) | (17 581,42) | (30 000,00) | | **-127 799,3** |
| **31 dekabr 2019-ci il tarixinə balans dəyəri** | **1 065 752,10** | **70 325,67** | **90 000,00** | | **1 226 077,7** |
| Daxilolmalar | | 21 419,15 | 83 000,00 | | **104 419,1** |
| Xaricolmalar | | | | | |
| Amortizasiya ayırmaları | (74 602,65) | (18 348,96) | (43 250,00) | | **-136 201,6** |
| Xaricolmalar üzrə amortizasiya | | | | | |
| 31 dekabr 2020-ci il tarixinə ilkin dəyər | 1 145 970,00 | 109 326,24 | 203 000,00 | - | **1 458 296,2** |
| Yığılmış amortizasiya | (154 820,55) | (35 930,38) | (73 250,00) | - | **(264 000,93** |
| **31 dekabr 2020-ci il tarixinə balans dəyəri** | **991 149,45** | **73 395,86** | **129 750,00** | | **1 194 295,3** |
| Daxilolmalar | | 7 316,00 | · | 1 938 761,68 | **1 946 077,6** |
| Xaricolmalar | | | | | |
| Amortizasiya ayırmaları | (69 380,46) | (16 142,37) | (32 437,50) | | **(117 960,33** |
| Xaricolmalar üzrə amortizasiya | | | | | |
| 31 dekabr 2021-ci il tarixinə ilkin dəyər | 1 145 970,00 | 116 642,24 | 203 000,00 | 1 938 761,68 | **3 404 373,9** |
| Yığılmış amortizasiya | (224 201,01) | (52 072,75) | (105 687,50) | - | **(381 961,26** |
| **31 dekabr 2021-ci il tarixinə balans dəyəri** | **921 768,99** | **64 569,49** | **97 312,50** | **1 938 761,68** | **3 022 412,6** |

## 9. QEYRİ-MADDİ AKTİVLƏR

| | İstifadə müddəti məlum olmayan | Cəmi |
|---|---|---|
| 31 dekabr 2020-ci il tarixinə ilkin dəyər | 8 699,72 | 8 699,72 |
| Yığılmış amortizasiya | (95,90) | (95,90) |
| **31 dekabr 2020-ci il tarixinə balans dəyəri** | **8 603,82** | **8 603,82** |
| Daxilolmalar | 1 954,38 | **1 954,38** |
| Xaricolmalar | | |
| Amortizasiya ayırmaları | (48,10) | **(48,10)** |
| Xaricolmalar üzrə yığılmış amortizasiya | | |
| 31 dekabr 2021-ci il tarixinə ilkin dəyər | 10 654,10 | **10 654,10** |
| Yığılmış amortizasiya | (144,00) | **(144,00)** |
| **31 dekabr 2021-ci il tarixinə balans dəyəri** | **10 510,10** | **10 510,10** |

## 10. KAPİTAL EHTİYATLARI

| | 31 dekabr 2021-ci il | 31 dekabr 2020-ci il |
|---|---|---|
| Dövlət tərəfindən əvəzsiz olaraq ayrılan əsas vəsaitlər və ehtiyyatlar | 1 218 477,90 | 1 218 477,90 |
| **Cəmi Dövlət tərəfindən əvəzsiz olaraq ayrılan əsas vəsaitlər və ehtiyyatlar** | **1 218 477,90** | **1 218 477,90** |

## 11. İNZİBATİ VƏ DİGƏR ƏMƏLİYYAT XƏRCLƏRİ

| İnzibati və digər əməliyyat xərcləri aşağıdakılardan ibarətdir: | 31 dekabr 2021-ci il | 31 dekabr 2020-ci il |
|---|---|---|
| Kompyuter avadanlıqlarının təmir və saxlanma xərcləri | | |
| Nəqliyyat vasitələrinin təmir və saxlanma xərcləri | (8 157,24) | (3 889,44) |
| Digər əsas vəsaitlərin təmir və saxlanma xərcləri | | |
| Avadanlıqların dəstəklənməsi üzrə xərclər | | |
| Tikinti layihə sənədlərinin hazırlanması | | (4 630,20) |
| Proqram təminatlarının dəstəklənməsi üzrə xərclər | (7 773,97) | |
| Mətbəə xərcləri | | |
| Nəqliyyat vasitələri üzrə istismar xərcləri | | |
| Əmlakın sığortası üzrə xərclər | | |
| Sığorta üzrə xərclər | (1 807,42) | (1 740,90) |
| Mühafizə xərcləri | | |
| Enerji və qızdırıcı sistemlər üzrə xərclər | | |
| Kommunal xidmətlər üzrə xərclər | | |
| Rabitə xərcləri | (7 013,44) | (11 348,16) |
| Kuryer xərcləri | | |
| Sorğu üzrə xərclər | (100 196,00) | (331 638,02) |
| Tədbir üzrə xərclər | (30 541,45) | |
| Tenderlə bağlı ödəniş | | (503,00) |
| Ofis xərcləri | (938,78) | |

| | | |
|---|---|---|
| Reklam xərcləri | (314,80) | (354,00) |
| Məsləhət, audit və digər peşəkar xidmətlər üzrə xərclər | (5 944,50) | (3 540,00) |
| Hüquq məsrəfləri və məhkəmə xərcləri | | |
| Vergi xərcləri | | |
| Ezamiyyə xərcləri | (11 482,80) | (2 137,00) |
| İşçilərilə bağlı digər xərcləri | | |
| Proqram təminatından istifadə üçün ödəniş | | (10 857,54) |
| Digər xidmətlər üzrə xərclər | | (4 545,91) |
| Dizayn xidməti | (6 900,00) | (13 750,00) |
| Sair xərclər | (444,00) | (1 505,10) |
| **Cəmi inzibati və digər əməliyyat xərcləri** | **(181 514,40)** | **(390 439,27)** |

## 12. ƏLAQƏLİ TƏRƏFLƏRLƏ ƏMƏLİYYATLAR

**Rəhbərliyə ödənişlər**

İdarə Heyətinin sədrini və digər üzvlərini Azərbaycan Respublikasının Prezidenti vəzifəyə təyin və vəzifədən azad edir. Rəhbərliyin üzvləri təsdiqlənmiş əmək haqqı cədvəlinə uyğun olaraq PHŞ tərəfindən əmək haqqı və mükafatlarla təmin edilir.

**Əhəmiyyətli əməliyyatlar**

Tərəflər o zaman əlaqəli hesab olunur ki, onlar eyni müəssisənin nəzarəti altında olsun və ya onlardan biri digərinə nəzarət edə bilsin və yaxud maliyyə-təsərrüfat fəaliyyəti ilə bağlı qərar qəbul edərkən digər tərəfə əhəmiyyətli təsir göstərə bilsin. Əlaqəli tərəflər arasındakı münasibətləri nəzərə alarkən həmin münasibətlərin hüquqi formasına deyil, iqtisadi məzmununa diqqət yetirilir.

## 13. MALİYYƏ RİSKLƏRİNİN İDARƏ EDİLMƏSİ

Maliyyə alətlərinin təxmin edilən ədalətli dəyəri BMS 32 "Maliyyə Alətləri: Təqdimat" və MHBS 9 "Maliyyə Alətləri: Tanınma və Ölçülmə" standartlarına uyğun olaraq təqdim edilmişdir. Ədalətli dəyər, məcburi satış və ya ləğv etmə halları istisna olmaqla, maraqlı tərəflər arasında cari əməliyyat zamanı maliyyə vasitəsinin mübadilə edilə bildiyi məbləği təşkil edir və ən yaxşı olaraq bazar qiyməti ilə sübut edilir. Burada təqdim edilən təxminlər PHŞ-in maliyyə alətini bazar vasitəsilə tam və ya qismən dəyişdirdiyi zaman əldə edəcəyi məbləğlərdən fərqli ola bilər.

**Maliyyə riski amilləri**

Fəaliyyətin adi gedişində PHŞ alınan və satılan malların dəyişkən qiymətləri, digər xammalların qiymətləri, valyuta məzənnələri və faiz dərəcələri nəticəsində yaranan bazar riskləri ilə üzləşir. Qiymətlərdəki dəyişikliklərdən asılı olaraq bazar qiymətlərindəki bu cür dəyişikliklər PHŞ-in maliyyə vəziyyətinin dəyişməsinə səbəb ola bilər. PHŞ-in ümumi risk idarəetmə proqramı maliyyə bazarlarının qeyri-müəyyənliklərini əhatə edir və PHŞ-in maliyyə fəaliyyətinə potensial mənfi təsiri azaltmağı nəzərdə tutur. Maliyyə nəticələrinə təsir edə bilən müxtəlif risklərin səmərəli şəkildə idarə edilməsi üçün PHŞ-in əsas strategiyası güclü maliyyə mövqeyinin qorunub saxlanmasından ibarətdir. Maliyyə riskinin vacib komponentləri likvidlik riski, xarici valyuta riski, faiz dərəcəsi riski və kredit riskidir.

**Likvidlik riski.**

Likvidlik riski aktiv və passivlərin ödəmə müddətlərinin uzlaşmadığı hallarda ortaya çıxır. Likvidliyin idarə edilməsinə PHŞ-in yanaşması həm adi, həm də qeyri-adi şəraitdə PHŞ-in nüfuzuna qəbul edilməyən zərər və ya risk zərəri vurmamaqla, öhdəliklərin müddəti başa çatdıqda onların likvidliyini daim təmin etməkdən ibarətdir. Rəhbərlik, 31 dekabr 2019-cu il tarixində PHŞ-in cari ödəmə strukturunun hər hansı bir əhəmiyyətli likvidlik riskinə məruz qalmadığını hesab edir

Aşağıdakı cədvəldə PHŞ-in maliyyə öhdəlikləri ödəmə müddətlərinə görə təsnifləşdirilir. Cədvəldə göstərilən məbləğlər diskont edilməmiş pul vəsaitlərinin hərəkətini əks etdirir. Diskontlaşmanın təsiri əhəmiyyətli olmadığı üçün 1 il ərzində ödənilməli qalıqlar onların balans dəyərinə bərabərdir.

**Xarici valyuta riski.**

Xarici valyuta riski, maliyyə alətlərinin dəyərinin xarici valyuta məzənnələrindəki dəyişikliklərə görə dəyişməsi riskidir. Xarici valyuta ilə ifadə edilmiş aktivlər (banklardakı depozitlər və debitor borcları) və öhdəliklər (kredit borcları və digər öhdəliklər) xarici valyuta riskini yaradır. Xarici valyuta riskini idarə etmək üçün PHŞ hər hansı rəsmi prosedurlara malik olmasa da, rəhbərlik fəaliyyət göstərdiyi sektorda baş verən tendensiyalardan kifayət qədər məlumatlıdır.

**Kapital risklərinin idarə olunması.**

Kapital nizamnamə kapitalı və yığılmış mənfəət və ya zərərdən ibarət olub, hazırkı maliyyə hesabatlarında kapitala aid edilir. PHŞ-dən kapital ilə bağlı konkret normativ əmsallara riayət etmək tələb olunmur.

**Kredit riski**

Qarşı tərəf borcunu müəyyən edilmiş ödəmə müddətində tam ödəyə bilmədikdə, PHŞ kredit riskinə məruz qalır. Adətən, maliyyə vəziyyəti haqqında hesabatda maliyyə aktivlərinin balans dəyəri PHŞ-in məruz qaldığı kredit riskinin maksimum miqdarını əks etdirir. Potensial kredit riskinin azaldılması üçün aktiv və öhdəliklərin əvəzləşdirilməsi imkanı böyük əhəmiyyət kəsb etmir. PHŞ-in kredit riski üzrə konsentrasiyalara məruz qalan maliyyə alətləri əsasən hesablarda olan vəsaitlər və debitor borclarından ibarətdir.

## 14 HESABAT DÖVRÜNDƏN SONRA BAŞ VERMİŞ HADİSƏLƏR

Hesabat dövründən sonra açıqlanma üçün heç bir vacib əməliyyat qeydə alınmamışdır.